Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Ordumuz zəfər yürüşünə tam hazırdır...

**Son illərdə ordusunu kifayət qədər gücləndirən Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində güc faktorundan istifadənin mümkünlüyü ilə bağlı indi Ermənistana daha çox xəbərdarlıq ünvanlamaqdadır. Elə işğalçı ölkədə də yaxşı bilirlər ki, güclü Azərbaycan ordusu düşmənini qısa müddətdə darmadağın etməyə tam hazırdır.**

Faktdır ki, Azərbaycan iqtisadi cəhətdən gücləndikcə hərbi qüdrətimiz də bir o qədər artır, ordumuzun döyüş hazırlığı yüksəlir. Atılan addımlar nəticəsində yüksək texnologiyaların tətbiqi ilə hazırlanmış ən müasir, yüksək dəqiqliyə, geniş ərazidə məhvetmə qabiliyyətinə malik silah-sursat və döyüş texnikası ordumuzun silahlanmasına qəbul edilib. Şəxsi heyətin döyüş hazırlığı da kifayət qədər yüksək səviyyədədir. Silahlı Qüvvələrimizin şəxsi heyətinin əksər hissəsi yeni, müasir komplekslərdə, hərbi şəhərciklərə yerləşdirilib. Qısa müddətdə, xüsusən cəbhəboyu zonada onlarla hərbi şəhərcik tikilərək istifadəyə verilib. Elə son 5 gün ərzində daha bir neçə belə şəhərcik istifadəyə verilib. Amma ümumilikdə götürdükdə, Silahlı Qüvvələrin modernləşdirilməsi, demək olar ki, bütün vacib sahələri əhatə edir. Məsələn, müasir döyüş əməliyyatlarında aviasiyanın və artilleriyanın rolunu nəzərə alaraq, görülən işlər çərçivəsində Hərbi Hava Qüvvələrinin döyüş vasitələrinin, idarəetmə sisteminin təkmilləşdirilərək yüksək texniki standartlar səviyyəsinə çatdırılması istiqamətində artıq bir çox işlər yerinə yetirilib və proses daim davam etdirilir. Quru qoşunları və digər qoşun növləri ilə bağlı vəziyyət də ölkəmizdə ən yüksək səviyyədədir. Bu durumda Azərbaycan Silahlı Qüvvələrinin düşmənə tuşlanan müasir, uzaqmənzilli, yüksək dəqiqliyə və dağıdıcı qüvvəyə malik minlərlə raketinin bütün Ermənistan ərazisindəki hərbi və müdafiə əhəmiyyətli obyektləri, eləcə də strateji kommunikasiya sistemlərini məhv etməyə qadir olduğunu artıq qarşı tərəf də yaxşı bilir. Ümumiyyətlə, son illər ərzində əldə edilən silah-sursat, hərbi texnika Ermənistanla Azərbaycan arasında hərbi sahədəki pariteti bizim xeyrimizə əhəmiyyətli dərəcədə dəyişib. Eyni zamanda, Azərbaycanda hərbi-sənaye kompleksinə aid onlarla müəssisə fəaliyyətə başlayıb.

O da həqiqətdir ki, ordunun gücü yalnız çoxsaylı silahlarla, hərbi texniki vasitələrlə ölçülmür. Ordumuzla bağlı daha bir üstünlük odur ki, şəxsi heyətin mənəvi-psixoloji səviyyəsi də çox yüksəkdir, ordumuzda xidmət edən hər bir əsgər və zabit yüksək vətənpərvərlik ruhuna malikdir. İndi tam əminliklə demək olar ki, ən müasir silah-sursat və döyüş vasitələri ilə təchiz edilmiş, yüksək vətənpərvərlik ruhuna malik, mənəvi-psixoloji cəhətdən hazırlıqlı Azərbaycan ordusu Qarabağ uğrunda zəfər yürüşünə tam hazırdır. Bunu Azərbaycandan kənarda da daim xüsusi vurğulayırlar. Məsələn, milli münaqişələr üzrə rusiyalı ekspert Yevgeniy Mixaylov bildirir ki, Azərbaycan ordusunun döyüş qabiliyyətinə görə Ermənistan hərbi birləşmələrindən qat-qat üstün olduğu göz qabağındadır. Onun sözlərinə görə, yalnız humanitar yardımlara bel bağlayan Ermənistandan fərqli olaraq, Azərbaycan hər cür silahlar almaq iqtidarındadır: "İstər təlim-tədris, istərsə də müasir silahlar idxalı sahəsində Azərbaycan Rusiya ilə səmərəli əməkdaşlıq edir. Bununla bağlı rəsmi İrəvanın bütün iradları və qorxuları əsassızdır. Rusiya olmasa belə, başqa ölkələr də Azərbaycana silah satar, çünki ödəniş yerindəcə həll olunur. Ermənistan tərəfi isə yalnız humanitar yardımlara bel bağlaya bilər, yeganə səmərəli müdafiə amili isə Gümrüdəki Rusiyanın hərbi bazasıdır. Özü də Rusiya ordusu separatçı regionu yox, məhz Ermənistanın özünü qoruyacaq ki, bu da Paşinyan rejimini bərk narahat edir".O, həmçinin, Ermənistanın təxribatçı addımları ilə Azərbaycanı cavab tədbirlərinə təhrik edə biləcəyini istisna etməyib:"Paşinyan rejiminin danışıqlar aparmaq iqtidarında olmaması göz qabağındadır. İşğal olunmuş ərazilərin qaytarılmasına dair daha əvvəl əldə olunmuş razılaşmalar qəsdən pozulur. Hətta Ermənistanın təhlükəsizliyinə zamin olan Rusiya belə artıq İrəvanın atdığı addımlardan əsəbiləşdiyini gizlətməyə lüzum görmür". Pakistanın Milli Təhlükəsizlik üzrə sabiq məsləhətçisi, ehtiyatda olan general-leytenant Nasir Xan Cancua da eyni mövqeni bölüşür. O, Azərbaycan ordusunun regionun ən güclü ordularından birinə çevrilərək, işğal olunmuş əraziləri istənilən vaxt azad etmək iqtidarında olduğunu vurğulayır. Azərbaycan ordusunun 2016-cı ilin aprel qələbəsi və 2018-ci ildə keçirilmiş uğurlu Naxçıvan əməliyyatı da bunun təsdiqidir.

Belə vəziyyətdə Rusiyanın "Arqumentı nedeli" nəşri də yazır ki, Azərbaycan Qarabağ məsələsini güc yolu ilə həll etməyə hazırdır:"Qafqazda böyük müharibə başlaya bilər. Azərbaycan və Ermənistan arasında münaqişə, demək olar ki, 30 ildir davam edir. Bu münaqişə yenidən alışmağa və tammiqyaslı müharibəyə çevrilməyə hazırdır. Hələlik regionda şərti barışığa riayət olunur, informasiya sakitliyi müşahidə olunur. Dağlıq Qarabağ məsələsi xəbərlərdə əsas gündəm olmur. Buna görə də çoxları artıq hər şeyin çoxdan bitdiyini düşünür, əslində isə Dağlıq Qarabağda müharibə davam edir".

"Arqumentı nedeli" münaqişə ətrafında baş verənlər və gözləntilərlə bağlı "Dağlıq Qarabağda müharibənin hüquqi tərəfi" elmi işinin müəllifi Sədat Quliyevin fikirlərini öyrənib. Münaqişənin tarixi, Ermənistanın Azərbaycan torpaqlarının işğalına necə nail olduğu haqda danışan S.Quliyev hesab edir ki, hazırda mövcud vəziyyət pisləşməyə doğru gedir, xüsusilə 2018-ci ildən sonra:

"Ermənistan Dağlıq Qarabağın müstəqilliyini tanımağı tələb edir, Azərbaycan ərazi bütövlüyünün təmin edilməsini, hərçənd, Qarabağa muxtariyyət də verməyə hazır idi. İndi vəziyyət əhəmiyyətli dərəcədə dəyişdi. Bakının mövqeyi dəyişməyib, dəyişən İrəvanın mövqeyidir. 2018-ci ilə qədər Ermənistan prezidentləri istəyirdilər ki, Azərbaycan yalnız Dağlıq Qarabağın müstəqilliyini tanısın, qalan yeddi rayon isə Azərbaycana qaytarılmalıdır, çünki bu ərazilər Azərbaycanındır. İndi Ermənistan ümumiyyətlə ərazilərin qaytarılmasını müzakirə etmək istəmir. Azərbaycanın mövqeyi dəyişməyib. Ermənistan 2018-ci ilə qədər anlayırdı ki, işğal edilmiş rayonları qaytarmalıdırlar. 2018-ci ildə Ermənistanda baş nazir əsas səlahiyyətli şəxsə çevriləndən, idarəçilik sistemi dəyişəndən sonra İrəvanın Qarabağı da, ətraf rayonları da qatarmaq istəmədiyi fikri önə sürüldü. İndi ermənilər bu ərazilərdə fəal şəkildə məskunlaşırlar. Əgər müharibəyə qədər orada 145 min erməni yaşayırdısa, indi Ermənistan tərəfindən işğal edilmiş Azərbaycanın bütün ərazisində 150 mindən çox erməni yaşayır". S.Quliyev qeyd edir ki, Suriyadan, Liviyadan 150 min erməni Qarabağa köçürülüb:"Deyəsən, hər şey böyük müharibəyə doğru gedir. Hələ ki, böyük güclər münaqişənin eskalasiyasına imkan vermir, amma yara qanayır, 2016-cı ildə olduğu kimi böyük eskalasiya gec-tez olacaq". Elə rusiyalı şərhçi Mixail Simonov da bu amilə diqqət çəkərək, Dağlıq Qarabağ münaqişəsinin həlli perspektivinin savaşla ola biləcəyini istisna etmir:

"Qarabağ cəbhəsində heç vaxt atəşkəs tam baş tutmayıb, hətta koronavirus pandemiyası belə bunu dayandıra bilmədi. Müntəzəm olaraq atəşkəsin pozulması və tərəflərin bir-birinə qarşı ittihamları haqqında xəbərləri eşidirik. Pandemiya Azərbaycan və Ermənistanın mayın ikinci yarısında hərbi təlimlərə başlamasına da mane ola bilmədi. Regionda vəziyyətin ciddiliyi hərbi ekspertlər tərəfindən dəfələrlə dilə gətirilib. Bu günlərdə nüfuzlu "Forbes" nəşri Azərbaycan və Ermənistanın casusluq və zərbələr üçün pilotsuz təyyarələrlə silahlandığı haqda yazırdı. Nəşr qeyd edir ki, "Qafqazda pilotsuz təyyarələrin müharibəsi ola bilər". Əfsus ki, münaqişə bölgəni təhlükə altına atır". Simonov hesab edir ki, Moskvadakı parad Azərbaycan və Ermənistanın sülhə nail ola biləcəyini göstərdi:"ATƏT-in Minsk Qrupunun fəaliyyəti sülh razılaşması haqda kədərli mənzərə yaratsa da, Rusiyanın birləşdirici rolu münaqişənin ədalətli həllinə hələ də ümidlərin olduğunu deməyə əsas verir. Amma bu olmasa, Azərbaycan güc yolu ilə ərazi bütövlüyü məsələsini həll etməyə tam hazırdır və bunu Ermənistanda da yaxşı bilirlər".

Bu durumda Ermənistanda ordu ilə bağlı problemlərin miqyasının böyüməsi də aydın müşahidə olunur. Məsələn, məlumdur ki, Ermənistan ordusu ildən-ilə daha ciddi şəkildə çağırışçı problemi ilə üzləşir və hərbi hissələrin komplektləşdirilməsi mümkünsüz xarakter alır. Əsas səbəblərdən biri isə Ermənistanda demoqrafik problemin getdikcə daha da dərinləşməsidir. Hazırda Ermənistanda şəxsi heyətlə tam şəkildə komplektləşdirilə bilən hansısa hərbi hissə yoxdur. Əksinə, ordunun şəxsi heyətlə təminatı durmadan pisləşir, real hərbçilərin sayı azalır. Bu durumda fərari əsgər sayına görə də Ermənistan ordusu ön sıralardadır. Ekspertlərin fikrincə, acınacaqlı vəziyyətdə qulluq etmək istəməyən əsgərlər hərbi hissələri tərk edir.

Məcburi hərbi xidmətdən yayınmaya görə müxtəlif illərdə minlərlə əsgərə cinayət işinin açılması da bunun təsdiqidir. Amma bu da istənilən nəticəni vermir. Artan hərbi itkilər də burada az rol oynamır. Ümumilikdə son illərdə Ermənistan ordusu cəbhə xəttində, döyüş şəraitində hər il orta hesabla 60-80 arası hərbi qulluqçusunu itirir. Bundan əlavə, hər il 100-dən çox əsgər digər hadisələrdən, məsələn, avtoqəza, silahla ehtiyatsız davranış, xəstəliklər, intihar və digər hallardan dünyasını dəyişir. Silah və digər təminat sarıdan da ordu acınacaqlı durumdadır. Belə vəziyyətdə ordumuz qısa müddətdə düşməni tam darmadağın etməyə hazırdır.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**